*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (5) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:28.07.2024*
*Kabul tarihi |Accepted:20.09.2024*
*Yayın tarihi |Published:25.10.2024*

**Saida Mehraliyeva**

*https://orcid.org/0009-0009-6701-3280*
*Doctoral student at Baku State University, Azerbaijan, saidamehraliyeva.v@bsu.edu.az*

*Atıf Künyesi | Citation Info*

Mehraliyeva, S. (2024). Azərbaycanın istiqlal mübarizəsi tarixində Mirzə Bala Məmmədzadənin ideoloji düşüncələri. *Akademik Tarih ve Düşünce Dergisi*, *11* (5), 2933-2940.

# Azərbaycanın istiqlal mübarizəsi tarixində Mirzə Bala Məmmədzadənin ideoloji düşüncələri

***Öz***

*Azərbaycanda millətin və dövlətçiliyin formalaşmasında bir sıra mütəfəkkirlər, maarifçilər, aydınlar və onların əsas ideyaları mühüm rol oynamışdır. Bu qabaqcıl ideyalar millətin kimliyinin, hüquq və azadlıqlarının dərk edilməsində əsas rol oynamış, onu azadlıq, istiqlal uğrunda mübarizəyə ruhlandırmış və öz müstəqil dövlətinin yaradılmasında hərəkətverici qüvvəyə çevrilmişdir. Azərbaycan xalqının, gənclərinin istiqlal mübarizəsində mühüm rol oynamış şəxsiyyətlərdən biri, yüzlərlə məqalələrin müəllifi, öz əsərlərində xalqını daim müstəqilliyə səsləyən, onun mübarizə əzmini sınmağa qoymayan, azadlıq aşiqi Mirzə Bala Məmmədzadə olmuşdur. Məqalədə Mirzə Bala Məmmədzadənin Azərbaycan milli hərəkatında iştirakı, xalqın, millətin azadlığı, hüquqları, təhsili, istiqlal mübarizəsi ilə bağlı əsas ideya və düşüncələri öz əksini tapmış, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti, dövlətin inkişafı və millətin formalaşması istiqamətində düşüncələri təhlil edilmişdir. Məqalədə Mirzə Bala Məmmədzadənin müstəqillik ərəfəsində Azərbaycan xalqının soyqırıma məruz qalması, türk qoşunlarının köməyi ilə Bakının azad edilməsi, sovet Rusiyasının Azərbaycanın müstəqilliyini həzm edə bilməməsi və işğal planları qurması və digər məsələlər ətrafında yazıları, əsərləri, fikir və düşüncələri əks olunmuşdur.*

***Açar sözlər:*** *Mirzə Bala Məmmədzadə, istiqlal, milli hərəkat, mübarizə, Azərbaycan Xalq Cümhuriyyəti*

CC BY NC Creative Commons Licence

# Mirza Bala Mammadzade's ideological thoughts in the history of Azerbaijan's struggle for independence

***Abstract***

*A number of thinkers, intellectuals, intellectuals and their main ideas played an important role in the formation of the nation and state in Azerbaijan. These progressive ideas played a key role in understanding the identity, rights and freedoms of the nation, inspired it to fight for freedom and independence and became the driving force in establishing its own independent state. Mirza Bala Mammadzadeh was one of the figures who played an important role in the struggle for independence of the Azerbaijani people and youth, the author of hundreds of articles, constantly calling his people to independence in his works, and not allowing their determination to struggle. The article examines Mirza Bala Mammadzadeh's participation in the Azerbaijani national movement, the basic ideas and thoughts of the people and nation regarding freedom, rights, education and independence, and reflects his thoughts on the direction of his activities. The development of the Azerbaijan Democratic Republic, the development of the state, and the formation of the nation are examined. The article reflects Mirza Bala Mammadzadeh's writings, works, ideas and thoughts on the genocide committed against the Azerbaijani people on the eve of independence, the liberation of Baku with the help of Turkish troops, the inability of Soviet Russia to digest Azerbaijan's independence and the occupation plans. and other topics.*

***Keywords:*** *Mirza Bala Mammadzadeh, independence, national movement, struggle, Azerbaijan People's Republic*

## Giriş

Mirzə Bala Məmmədzadə Cümhuriyyət illəri və sovet işğalından sonrakı dövrdə Azərbaycan dövlətinin yaradılmasında mühüm rola malik intellektual bir şəxsiyyət, azadlıq mücahidi və carçısı olmuşdur. Mirzə Bala öz əsas yaradıcı və siyasi fəaliyyətinə Azərbaycanda cəmiyyətin milliləşdirmə mərhələsinə keçdiyi dövrdə başladı. Onun milli ruhda fəaliyyətinə təkan verən əsas amillərdən biri M. Ə. Rəsulzadənin yeni millətçi, türkçü baxışlarını, milli kimliyini və mədəniyyətini nümayiş etdirməyə çalışan Azərbaycan gənclərini səfərbər etməsi, onları milli hərəkatda assosiasiyalar və cəmiyyətlər ətrafında birləşdirməsi və milli ideala xidmət etməyə imkan yaratması idi. Bu idealistlər arasında milli yolda mübarizə aparan gənclərdən biri Mirzə Bala Məmmədzadə idi. Mirzə Bala Məmmədzadə mətbuatla siyasi həyatı birləşdirərək Azərbaycanın milli mübarizəsində güclü bir təbliğatçı olmuşdur.

1920-ci il aprelin 27-də Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra Mirzə Bala mübarizə yoldaşları ilə birlikdə İstiqlal Komitəsini yaradaraq, onun rəhbəri oldu. Lakin bolşeviklərin müsavatçıları təqib etməsindən sonra o, əvvəlcə İrana, 1927-ci ildə Türkiyəyə, 1932-ci ildə isə Varşavaya köçərək Azərbaycanın azadlığı yolunda mübarizəsini davam etdirmişdir. Rəsulzadə vəfat etdikdən sonra Mirzə Bala Məmmədzadə Müsavat Partiyasına

rəhbərlik etmiş, ömrünün sonuna qədər bu şərəfli vəzifəni yerinə yetirmişdir (Mehmetzade, 1927, s. 16). Mirzə Bala Məmmədzadənin mühüm əsərlərindən biri "Azərbaycan Milli Hərəkatı"dır. Müəllif bu əsərində özünü həssas məfkurəçi, milli şüurun əvəzolunmaz salnaməçisi kimi təqdim etmişdir. Mirzə Bala Məmmədzadə öz əsərlərində milli mübarizənin problemlərini tədqiq edərək tarixçi mövqeyi ilə hadisələrə yanaşmışdır. Onun Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı "İflas nədən oldu", "Azərbaycan parlamentosu, "Azerbaycanın milli şurası", "Azərbaycan universiteti" adlı məqalələri Şərqdə ilk respublika olan Cümhuriyyət tarixini və həmin dövrün siyasi proseslərini öyrənmək baxımından dəyərli mənbələrdir. Məmmədzadənin ictimai-siyasi fəaliyyəti haqqında bir sıra məqalələr, kitablar yazılmış, lakin bu kifayət etməmiş, daha dərin tədqiqatların aparılmasına ehtiyac yaranmışdır. Bu, ilk növbədə Azərbaycan siyasi mühacirlərinin, istiqlalçı Müsavat xadimlərinin tədqiqinə nisbətən gec başlanılması, arxiv mənbələrinin, mühacirət dövrü mətbu orqanlarının ardıcıl və sistemli şəkildə əldə olunmaması ilə əlaqədardır.

## 1. Mirzə Bala Məmmədzadə və Azərbaycanda milli azadlıq hərəkatı

XIX əsrin ikinci yarısından etibarən Azərbaycanda maarifçi hərəkat başlamış, onun aparıcı qüvvəsini təşkil edən ziyalılar demokratik hərəkatlarda, azadlıq uğrunda mübarizələrdə fədakarlıqla iştirak edərək, onun hərəkətverici qüvvəsi olmuşlar. Bu hərəkat əvvəlcə mətbuat səhifələrində başlamış, tədricən təşkilatlanaraq siyasi partiyalara çevrilmiş, Azərbaycan cəmiyyətini milli və sinfi mübarizəyə, müstəqilliyə hazırlamışdır (Mədətli, 2018). Xalqın maariflənməsi və onun azadlığı yolunda mübarizə aparan aydınlardan biri Mirzə Bala Məmmədzadə 1898-ci il mayın 24-də, (bəzi mənbələrdə isə avqustun 13-də) Abşeronun Zirə kəndində balıqçı ailəsində anadan olmuşdur. Mirzə Bala Məmmədzadənin uşaqlıq illəri Çəmbərəkənddə keçmiş, 1914-cü ildə 7-ci rus-tatar məktəbini, 3-cü ali ibtidai məktəbi bitirmiş, sonra isə Bakı texniki sənaye məktəbində təhsilini davam etdirmişdir.

Mirzə Bala Məmmədzadə Süleyman Sani Axundov, Abdulla Şaiq, Rəhim bəy Şıxlinski, Əliməmməd Mustafayev kimi tanınmış maarifçi xadimlərdən dərs almışdı. Onun eyni sinifdə təhsil aldığı Cəfər Cabbarlı ilə münasibətləri möhkəm dostluğa dayanırdı. Həmin dövrdə baş verən gərgin ictimai-siyasi hadisələr gənc tələbə Mirzə Bala Məmmədzadəyə böyük təsir göstərmiş, təhsil aldığı Bakı Politexnik Məktəbi inqilab əhvali-ruhiyyənin mərkəzlərindən birinə çevrilmişdi. Həmin dövrdə çar Rusiyasının müstəmləkəçilik siyasətinə qarşı çıxan tələbələr Azərbaycanın istiqlalı uğrunda mübarizədə birləşmək məqsədilə gizli təşkilatlar yaradırdılar. Belə təşkilatlardan biri məktəbdə yaradılan qeyri-leqal Məmmədiyyə təşkilatı idi.

Mirzə Bala Məmmədzadə həmin təşkilatın ən fəal üzvlərindən idi. "Məhəmmədiyyə" dərnəyində Mirzə Balanın qabaqcıl düşüncəli ziyalılarla yaxından tanışlığı onun dünyagörüşünün formalaşmasına ciddi təsir göstərmişdir.

Mirzə Bala çox gənc yaşlarından mətbuatda çıxış edərək, 1915-ci ildən "Açıq söz" qəzetində xalqın tərəqqisində təhsilin, maarifin rolu, məktəblərdə mövcud olan problemlərdən bəhs edən yazılar dərc etdirirdi. Qəzet dövrün ictimai-siyasi hadisələrini tərəddüd etmədən təsvir edərək, çar Rusiyasının hakimiyyəti altında olan türk xalqlarının, eyni zamanda Azərbaycan türklərinin milli şüurunun formalaşması və inkişafında mühüm rol oynamışdır. "Açıq söz" qəzetində ilk dəfə "müsəlman" və "tatar" sözlərinin əvəzinə "türk" sözü işlənmişdir (Swıetochowski, 1988). Mirzə Bala "Açıq söz"lə bərabər, "Bəsirət" qəzeti ilə də sıx əməkdaşlıq etmiş, həmin qəzetin bir neçə nömrəsinin baş redaktoru olmuşdur (Fərəcova, 2023). 1917-ci il fevral inqilabından sonra Mirzə Bala Məmmədzadə Bakıda Azərbaycan gənclərinin lideri səviyyəsinə yüksəlmişdi. Mirzə Bala Bakıda tələbələrin yayım orqan olan "İttifaqi-mütəəllimin" və "Gənclər sədası" dərgilərində də fəal çıxışlar etmiş, "Gənclər sədası" və "İttifaqı-mütəllim" qəzetlərinin redaktoru olmuşdur (Fərəcova, 2023). Mirzə Bala çar Rusiyasının məzhəb ayrıseçkiliyi siyasətini tənqid etmiş, şiə-sünnü qarşıdurması yaratma siyasətinə qarşı mübarizə aparmışdır (Əhmədli, 2017, s. 24). Mirzə Bala 1918-ci ilin əvvəllərində Tiflisdə Zaqafqaziya Seyminin qurulması və fəaliyyəti ilə bağlı məqalələr yazır, Seymin Azərbaycandan olan deputatlarına yaxından kömək edirdi. Bu dövrdə Mirzə Bala "İki inqilab arasında" əsərini yazmış, burada o, Azərbaycan türklərinin vahid ideologiya ətrafında birləşməsini millət olaraq inkişafın təməli hesab etmişdir (Mədətli, 2018). Azərbaycanda milli ziyalıların, milli burjuaziya və milli mətbuatın birgə milliyyətçilik ideologiyasını qəbul etməsi xalqın yeni bir milli kimlik ətrafında birləşməsinə şərait yaratmışdı. Azərbaycan ziyalıları tədricən Rusiya meyilli cərəyanlardan uzaqlaşaraq, Türkiyə və Qərb cərəyanlarına istiqamətlənmişdir. Qərb istiqamətli meyillər və milliyyətçilik hərəkatının inkişafı Mirzə Balanın da fikir və düşüncələrinə təsir göstərmişdir (Əhmədli, 2017, s. 32). Mirzə Bala Məmmədzadə Şərqdə və müsəlman dünyasında Avropa tipli ilk demokratik cəmiyyətin qurulmasının azərbaycanlılara məxsus olması fikrini elmi-nəzəri cəhətdən əsaslandırmağa çalışmışdır. Bunun üçün o, türkçülüyün ideoloqlarından olan Yusif Akçuranın "Türk fikri, türkçülük cərəyanı, türk ocaqları" əsərinə müraciət edərək, onun fikirlərini inkişaf etdirmiş, yeni milli fikrin və ideologiyanın XIX əsrin ortalarında yaranmağa başladığını bildirmişdir. Mirzə Bala milli düşüncə tarixi və onun inkişafından bəhs edərkən bu prosesin Mirzə Fətəli Axundovdan başladığını, Həsən bəy Zərdabi, İsmayıl bəy Qaspıralı, Əlibəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məmməd Əmin Rəsulzadənin xidmətlərini vurğulayırdı (Məmmədzadə,

1992, s. 12). Mirzə Bala Məmmədzadə millətin təhsili məsələsinə əhəmiyyət verir, bu baxımdan məktəblərin milliləşdirilməsinin vacibliyini bildirirdi (Məmmədzadə, 1917).

**2.Mirzə Bala Məmmədzadənin Azərbaycan Xalq Cümhuriyyətində yeri və rolu**

Cümhuriyyətin yaranması ərəfəsində Azərbaycanda gərgin siyasi vəziyyət mövcud idi. Ermənilər və rus bolşeviklərini müsəlmanlara qarşı hücuma təşviq edən Stepan Şaumyanın başçılığı ilə 1918-ci il martın 30-dan aprelin 1-nə qədər Bakıda minlərlə günahsız müsəlman öldürülmüş, onların evləri yandırılmış, mağazaları talan edilmişdir. Hadisələr zamanı ermənilər Azərbaycan memarlığının nadir tarixi nümunələrindən olan "İslamiyyə" binasını yandırmışdılar.

1918-ci il Mart soyqırımına həsr edilmiş ilk bədii əsər Məmmədzadənin "Gənclər yurdu" məcmuəsinin ilk sayında nəşr olunan "Əksinqilabçılar" hekayəsi idi. Mirzə Bala hekayədə Rusiyanın ideoloji təsiri altında olan Azərbaycan ziyalısının soyqırımı öz gözləri ilə görməsinə, doğmalarını itirməsinə baxmayaraq, qətlə yetirilənlərin "əksinqilabçılar" olduğunu söyləməkdə israrlı olması, həqiqəti dilə gətirə bilməməsi, bu problemə rus bolşeviki və erməni daşnakı kimi yanaşması məsələsini göstərmiş, nəticədə mükəmməl bir Hüseyn obrazı yaratmışdır (Rüstəmli, 2018 ). Bu siyasi hadisələr dövründə Mirzə Bala Məmmədzadə Müsavat Partiyasının üzvü idi və onun tapşırığı ilə Zaqafqaziya Seyminin işində iştirak etmək üçün seymin mərkəzi olan Tiflis şəhərinə getmiş və ictimai-siyasi fəaliyyətini burada davam etdirmişdi. Mirzə Bala Gürcüstanda Qafqaz Federasiyasının qurulmasında iştirak edən təbliğatçılar qrupunun üzvü olmuş, Qafqaz Federativ Cumhuriyyətinin yaradılmasına çalışmış, Qafqazda birliyin, bərabərliyin qorunub saxlanması məqsədi daşıyan Qafqaz Tələbələrinin Mərkəzi Komitəsinin rusca-türkcə nəşr etdirdiyi "Gənclər sədası" jurnalının mühüm yazarlarından biri olmuşdu (Qasımlı, 2019).

Azərbaycan 1918-ci ildə müstəqilliyini elan etdikdən sonra Məmmədzadə Bakıya qayıtmış, yeni yaradılan respublikanın müxtəlif orqanlarında çalışmış və Müsavat Partiyasının Bakı komitəsinin üzvü seçilmişdir. Eyni zamanda Mirzə Bala "Bəsirət", "Azərbaycan", "İttifak-ı Müteallimin", "Gənclər Sədası" kimi mətbuat orqanlarında müxbir və yazar kimi fəaliyyətini davam etdirmişdir. Mirzə Bala Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsini təhlil edərək demokratik respublikaya millətin öz qərarı, öz fərmanı və öz iradəsinin nəticəsi kimi yanaşmışdır. Mirzə Bala İstiqlal Bəyannaməsinin 4-cü maddəsini təhlil edərək Cümhuriyyətin bütün vətəndaşlarına, millət, məzhəb, sinif və cins fərqi etmədən siyasi və mülki haqlar verməsinin Şərqdə böyük bir dönüş etdiyini söyləyirdi (Mehmetzade, 1927, s. 20). Mirzə Bala 1918-ci il dekabrın 7-dən etibarən Azərbaycan parlamentində yaxın dostu Cəfər

Cabbarlı ilə birlikdə stenoqrafçı kimi çalışmış, bütün çıxışları, məruzələri, görüşləri, qərarları, qanunları qələmə almışdır. Həmin illərdə Mirzə Bala eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin baş redaktoru kimi fəaliyyət göstərmişdir (Mədətli, 2018).

Mirzə Bala Məmmədzadə Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra "Gənclər yurdu" jurnalında redaktor, jurnalist kimi fəaliyyət göstərməyə başlamışdır. "Gənclər yurdu" jurnalı Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr edilən ilk milli jurnal idi. Jurnalda bütün yazıları müəyyən istisnalarla demək olar ki, Mirzə Bala qələmə almışdır. Onun jurnalda dərc olunan "Azərbaycan Cümhuriyyəti" məqaləsində çox ciddi məsələlərə toxunulmuşdur. Mirzə Balanın məqalələrində diqqət yetirdiyi ən mühüm məsələlərdən biri istiqlalını yeni qazanmış Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi və sərhədləri məsələsi idi (Rüstəmli, 2018). Mirzə Bala Məmmədzadə Xalq Cümhuriyyəti dövründə ilk dəfə mətbuat vasitəsilə bütöv, tarixi Azərbaycan ərazisini, onun sərhədlərinin çərçivəsini oxucularına təqdim etdi. Bu, bütöv Azərbaycan uğrunda gələcək mübarizəyə işarə və çağırış idi. Mirzə Bala Məmmədzadə Azərbaycan dövlətçiliyinin qədim tarixə malik olduğunu, sonradan onun ərazilərinin Rusiya və İran arasında bölüşdürüldüyünü yazır və bütöv Azərbaycan ideyasını müdafiə edirdi (Məhəmmədzadə, 1918).

Məmmədzadə redaktoru olduğu "Gənclər yurdu" məcmuəsinin 3-cü sayında Bakının işğaldan azad edilməsi, Azərbaycan hökumətinin altı ay qanlı və ağır müharibədən sonra 1918-ci il sentyabrın 16-da Bakıya köçməsi, Gürcüstan, Ermənistan, Almaniya, Türkiyə, Avstraliya, Macarıstan hökumətlərinin öz siyasi nümayəndələrini Azərbaycana yollaması haqqında məlumat vermişdir (Rüstəmli, 2018). Qeyd edək ki, Mirzə Bala Məmmədzadənin "Bakı uğrunda mübarizə" pyesi 1919-cu il sentyabrın 17-də Azərbaycan Dövlət Teatrında tamaşaya qoyulmuşdu (Mədətli, 2018). Azərbaycan Xalq Cümhuriyyəti dövründə universitet açmaq, milli kadrlar yetişdirmək məsələsi həm parlament, həm də mətbuatda əsas müzakirə predmetinə çevrilmişdi. Mirzə Bala "Azərbaycan" qəzetinin 1919-cu il 9 iyul tarixli sayında çap olunan "Darülfünun haqqında" adlı məqaləsində bu məsələyə münasibət göstərərək, milli dildə universitetin yaradılması fikrini dəstəklədiyini bildirmişdir (Rüstəmli, 2018, 24 may).

Sovet Rusiyasının işğalı ərəfəsində M. B. Məmmədzadə öz silahdaşları ilə birlikdə siyasi mübarizənin davam etdirilməsinin tərəfdarı idi. 1920-ci il aprelin 27-də, gecə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sonuncu fövqəladə iclası keçirildi. Hökumətin bolşeviklərə təslim edilməsi məsələsi müzakirə edildi. Parlamentin stenoqrafçıları – Mirzə Bala Məmmədzadə və Cəfər Cabbarlı son iclası kağıza həyəcan və kədərlə köçürdülər.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və onun səbəbləri məsələsi Məmmədzadə yaradıcılığında əsas mövzulardan biridir. Mirzə Bala sovet Rusiyasının Cümhuriyyəti işğal etməsi məsələsinə 1920-23-cü illərdə gizli Müsavat mərkəzinin bəyannamələrində, sonralar "Azərbaycan tarixi hərəkatında Müsavatçılar və kommunistlər", "Bolşeviklər və daşnaklar", "İflas nədən oldu" məqalələrində dəqiq qiymətləndirmişdi. Mirzə Bala "Bolşeviklər və daşnaklar" məqaləsində Cümhuriyyətə qarşı Rusiya bolşeviklərinin erməni daşnakları ilə birlikdə ittifaqa girərək mübarizə apardıqlarını konkret tarixi faktlar əsasında təhlil etmişdir (Aslanova, 2014). Beləliklə, Mirzə Bala Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə, İstiqlal bəyannaməsinə, Azərbaycanın dövlət bankı, Qafqaz İslam Ordusu, 27 Aprel istilasına dair tədqiqatlar aparmışdır. Onun bu tədqiqatlarında dövlət müstəqilliyinin düşmənlərinə, bədnam ermənilərə qarşı nifrət ifadə olundurdu (Aslanova, 2014).

## Nəticə

Beləliklə, Mirzə Bala Məmmədzadə Cümhuriyyətin qurulmasını Azərbaycan xalqının birlik və bərabərliyində görürdü. O, türk dünyasına səslənərək onları azadlıqları üçün mübarizəyə səsləyirdi. Azərbaycan Xalq Cümhuriyyəti türk dünyası və müsəlman şərqində ilk cümhuriyyət olmaqla özü-özlüyündə bir inqilab idi. Mirzə Bala Cümhuriyyəti milli bir ideyaya sahib, fədakar xalqın yorulmaq bilmədən apardığı mübarizənin məhsulu kimi görürdü. 1918-ci ilin sentyabr ayında Bakının İslam Ordusu tərəfindən işğalçılardan təmizlənməsi Azərbaycan istiqlalının tam olaraq bərqərar olduğu tarixi bir hadisə idi. Mirzə Bala Məmmədzadə "Bakı uğrunda mücadilə" adlı əsərində türk əsgərlərinin qəhrəmanlıqlarından geniş şəkildə bəhs etmiş, bu zəfərin xalqın qəlbində və ruhunda dastan olmasını təmin etmişdir (Baykara, 1959). Mirzə Balanın ictimai-siyasi fikir tarixində düşüncələri öz aktuallığını saxlayır. Onun Azərbaycanın müstəqilliyi, istiqlaliyyəti, xalqın maariflənməsi və təhsili ilə bağlı əsərləri həmin dövrün tarixinin öyrənilməsində qiymətli mənbə hesab olunur.

## Ədəbiyyat

Aslanova, T. Ə. (2014). *Mirzə Bala Məmmədzadənin ədəbi-elmi yaradıcılığı* [fil. üzrə fəls. dok. Dissert]. Azerbaycan.

Baykara, H. (1959). Mirzə Bala. *Azerbaycan dergisi,* 2-3, 86-87.

Əhmədli, R. (2017). *Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri.* Ozan.

Fərəcova, Z. (2023). *Zamanın fırtınalarında keçən ömür.* https://www.elibrary.az/docs/qazet/qzt2023_2719.pdf

Mehmetzade, M. B. (1927). *Azerbaycan Misak-ı Millisi.* Necm-i İstikbal Matbaası.

Mədətli E. (2018). *Mirzə Bala Məhəmmədzadə irsinə dair dəyərli araşdırma.* http://www.anl.az/down/meqale/525/2018/fevral/579511.htm

Məhəmmədzadə, M. B. (23 iyul 1918). Azərbaycan Cümhuriyyəti. *Gənclər yurdu, Tiflis, 1,* 4.

Məmmədzadə, M. B. (Cuma 29 Eylül 1917). Məktəblərin Milliləşməsi ve Müəıllimlərimiz. *Açıq Söz, 577,* 2-3.

Məmmədzadə, M. B. (1992). *Milli Azərbaycan Hərəkatı.* Nicat.

Rüstəmli, A. (2018). *Mirzə Bala Məhəmmədzadə və onun "Gənclər Yurdu" məcmuəsi.* https://kaspi.az/az/mirze-bala-mehemmedzade-ve-onun-gencler-

Rüstəmli, A. (24 may 2018). Mirzə Bala Məhəmmədzadə Cümhuriyyət dönəmində. *Xalq qəzeti.*

Swıetochowski, T. (1988). *Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycan'ı 1905-1920,* İstanbul.

Qasımlı, A. M. (2019). *Azərbaycan Türklərinin istiqlal mücahidi Mirzə Bala Məmmədzadə* http://anl.az/down/meqale/turkustan/2019/.